Xalq qəzeti.- 2019.- 28 dekabr.- S.4.

# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 503** **Bakı şəhəri, 25 dekabr 2019-cu il**

***"Dərman vasitələrinin farmakonəzarət Qaydası"nın təsdiq edilməsi haqqında***

"Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respubli-kasının 2018-ci il 18 may tarixli 1150-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 27 iyun tarixli 157 nömrəli Fərmanının 1.1.3-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Dərman vasitələrinin farmakonəzarət Qaydası" təsdiq edilsin (əlavə olunur).

**2.** Bu Qərarda dəyişikliklər Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

**3.** Bu Qərar 2020-ci il iyulun 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV***

***Azərbaycan Respublikasının Baş Naziri***